# Universitetin bütün fakültələrində IV kurs tələbələrinin istehsal təcrübəsi müvəffəqiyyətlə davam edir.

Fevralın 18-də başlayan istehsalat təcrübəsi Bakının bir sıra tanınmış elm və təhsil ocaqlarında, idarə və müəssisələrində davam edir. İstehsalat təcrübəsi zamanı tələbələr universitetdə aldıqları biliklərini işdə sınaqdan keçirirlər.

“Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi” və “Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi” ixtisasları üzrə təhsil alan IV kurs tələbələri builki istehsalat təcrübələrini “Azərbaycan Dəmir Yolları” QSC-nin Biləcəri çeşidləmə stansiyasında keçirirlər. Dünən onlar növbəti təcrübə zamanı Yüklərin vaqonlarda yerləşdirilməsi, yüklərin qablaşdırılmasının texniki şərtlərinə və təhlükəsizlik qaydalarına əməl olunması, yəni hərəkət zamanı yüklərin sürtünmələrinin və silkələnmələrinin qarşısının alınmasına nəzarət qaydaları ilə tanış oldular. Təcrübəli mütəxəssislər tələbələrə bu sahədə əmələ gələ biləcək problemlər və onların aradan qaldırılması yollarından danışdılar. Bir sıra vaqonlarda yüklərin yerləşdirilməsi qaydalarına əməl olunub-olunmadığı tələbələrin iştirakı ilə nəzərdən keçirildi.




